# ZİYALILIQ ONUN MİSSİYASIDIR

**Ramiz RÖVŞSSN (şair):**

***Qulunun peşəkarlığının kökündə onun böyük istedadı ilə yanaşı, həm də təmiz vicdanı və əxlaqı dayanır.***




Neçə illərdir ki, yaxın dostluq etdiyimiz, görkəmli jurnalist və publisist Qulu Məhərrəmli bizim mətbuat aləmimiz üçün nümunə ola biləcək şəxsiyyətlərdən biridir. Onun həm elmi yaradıcılığı, həm ictimai, həm də jurnalist fəaliyyəti bunu açıq-aydın şəkildə təsdiq edir.

Mənim jurnalistdə, qələm əhlində görmək istədiyim və tələbələrimə də dönə-dönə təlqin etdiyim birinci əsas şərt dürüst və vicdanlı olmaqdır. Məncə, jurnalist hansı çətin şəraitdə çalışsa da, nə qədər vaxt darlığı içərisində olsa da, obyektivlik meyarını itirməməlidir. Çünki bu tələsikliyin içərisində, bu qaç-qov prosesində kiminsə haqqı tapdana, taleyi ilə oyun oynanıla bilər, günah səviyyəsində addımlar atıla bilər. Bu baxımdan Qulu Məhərrəmli ən qarışıq dövrlərdə və ən həssas yerlərdə çalışsa da, ən mürəkkəb vəziyyətlərdə fəaliyyət göstərsə də heç vaxt obyektivliyini itirmədi, mizan-tərəzini, ölçünü pozmadı və həmişə öz dürüstlük prinsipinə, həqiqətə sadiq qaldı.

Zəngin daxili mədəniyyəti, güclü yumor hissi olan çox həssas, eyni zamanda prinsipial, mübariz və əzmkar bir adam olan Q.Məhərrəmli haqsızlığı, riyakarlığı və yaltaqlığı qəbul edən deyil. O, düşüncəsində və davranışında, bütün həyat fəaliyyətində müstəqildir. Xüsusən millət, dövlət və ictimai əxlaq məsələsində heç bir kənar diqtələri, mənasız çərçivələri qəbul etməyən, yalnız vicdanın səsinə qulaq asan iradəli şəxsiyyətdir. Məhz bu keyfiyyətlərinə görə ictimaiyyət arasında, elm, təhsil və media dairələrində Qulu müəllimi yaxşı tanıyır və hörmət edirlər.

Qulu müəllimin adı da, imzası da cəmiyyətdə bir dəyər kimi qarşılanır, insanlar bu imzanın arxasında vicdanlı bir şəxsiyyət görürlər. Belə şəxsiyyətlərlə bağlı hər hansı davranış həmişə geniş rezonans doğurur. Yaxşı xatırlayıram ki, 2-3 il əvvəl onun imzasından ziyalılara qarşı istifadə etmək cəhdi olanda cəmiyyət necə bir-birinə dəymişdi. Bax belə bir böhranlı şəraitdə Q.Məhərrəmli böyük təmkin və ləyaqətlə saxtakarlığa qarşı çıxdı və əsl ziyalının hansı mənəvi gücə sahib olduğunu göstərdi. Doğrudur, bütün prinsip adamları kimi Qulu müəllim də belə əzminə görə bəzən mənəvi təzyiqlərə məruz qalır, haqqını tapdalayır, dəyərini verməkdən qorxurlar, amma bu, heç nəyi dəyişmir, çünki ziyalılıq onun missiyasıdır. Əlbəttə, ləyaqətli davranışa görə müəyyən situasiyalarda, məsələn, elə ziyalılarla bağlı məsələdə o, itkilərlə də üzləşdi. Məncə, tarix qarşısında Qulunun qazancı XXI əsrdə Azərbaycan ziyalılığının adına şərəf gətirmək mənasında daha böyükdür.

Əziz dostumuz Qulu Məhərrəmli kimi əsil ziyalıların və qələm sahiblərinin ömrü çox uzun olur, söhbət bioloji yaşdan getmir, dünyanın astronomik sonu yoxdur. Mən istəkli dostuma və dəyərli ziyalımıza dünya ömrü arzulayıram!

***Rafiq ƏLİYEV,***
***AMEA-nın müxbir üzvi,***
***professor***
***2019***